# Avropa Parlamentinin üzvü Qərbi azərbaycanlıların yaşadıqları bəlaları tarixi faciə adlandırıb



Avropa Parlamentinin üzvü Xaviyer Nart Qərbi Azərbaycan İcmasında icmanın İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli və icmanın sözçüsü Ülviyyə Zülfiqar ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Qərbi Azərbaycan İcmasından məlumat verilib.

Bildirilib ki, görüşdə icma sədri ispaniyalı qonağa Qərbi azərbaycanlıların ötən 200 il ərzində üzləşdiyi soyqırımları və deportasiyalar barədə məlumat verib, dağıdılan maddi-mədəni irsimizdən bəhs edib. Ə.Ələkbərli Avropa Parlamentində Azərbaycana qarşı qərəz və ayrı-seçkiliyin regionda sabitliyə mənfi təsir göstərdiyini deyib. Parlamentariyə bildirilib ki, soydaşlarımız sonuncu - 1987-1991-ci illər deportasiyası zamanı zorla öz evlərini tərk etməyə məcbur ediliblər. Bu gün onların niyyəti sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə öz ata-baba yurdlarına qayıtmaqdır.

Xaviyer Nart öz növbəsində Qərbi azərbaycanlıların yaşadıqları bəlaları tarixi faciə adlandıraraq həqiqətlərimiz barədə daha çox məlumat istəməklə öyrəndiklərini avropalı həmkarlarına çatdıracağını bildirib.

Qonağa Qərbi Azərbaycan İcmasının bir neçə dildə nəşr edilmiş Qayıdış Konsepsiyası da təqdim olunub.

Azərbaycan.- 2024.- 14 may, № 99.- S.6.